# Uşaq və gənclərin inkişafında media və QHT ailə institutuna necə dəstək verir...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Hər bir dövlət çalışmalıdır ki, böyüməkdə olan nəslin mənəvi və fiziki cəhətdən inkişaf etməsi üçün mühüm addımlar atsın. Azərbaycanda müstəqilliyin ilk illərində - baş verən hadisələr, xüsusən gənclərin siyasi məqsədlər naminə çirkin kampaniyalara sürüklənməsi, onların başlı-başına qalması, əlbəttə ki, gənclərimizə çox böyük mənfi təsir göstərirdi.**



1993-cü ildən sonra, ümummilli liderimiz Heydər Əliyev xalqın təkidi və tələbi ilə hakimiyyətə gəldikdən sonra bu sahədə nizamlı işlər görüldü. Ən çox diqqət edilən sahələrdən biri məhz uşaq və gənclərin mənəvi və fiziki inkişafı oldu. 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə Gənclər və İdman Nazirliyinin yaradılması bunun əyani sübutudur. Ondan sonrakı mərhələdə, 2003-cü ildən bu günə kimi görürük ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan gəncləri arasında Heydər Əliyevin azərbaycançılıq ideologiyası daha çox təbliğ olunmağa başlanıldı, inkişaf etdirildi. Bunun üçün müxtəlif dövlət proqramları qəbul olundu. Dövlət gənclər siyasətinin qəbul olunması, zaman-zaman bu qanun layihəsinin daha da təkmilləşdirilməsi, istedadlı gənclərin üzə çıxarılması, xaricdə təhsil proqramlarının həyata keçirilməsi, idman tədbirlərinin əhatəsinin genişləndirilməsi, bunun üçün infrastrukturun qurulması, Azərbaycan gənclərinin daha təhsilli, savadlı olmaları üçün ölkə daxilində universitetlərin təkmilləşdirilməsi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin həyata keçirdiyi məqsədyönlü siyasətdir. Məqsəd isə həm Azərbaycan gənclərinin fiziki inkişaf etmələri, həm də öz savadları ilə beynəlxalq platformalarda Azərbaycan həqiqətlərini, haqq səsini çatdırmağa şərait yaratmaqdır.

### Bunun kökündə ölkə Prezidentinin apardığı düzgün, düşünülmüş, məqsədyönlü siyasət dayanır

İlk növbədə Vətənə sevgi, sədaqətin nümayiş etdirilməsidir. Cənab Prezident İlham Əliyevin hakimiyyəti dövründə böyüyən gənclərimizin 44 günlük Vətən Müharibəsində necə qəhrəmanlıq göstərdiklərinin şahidi olduq. Bunun da kökündə ölkə Prezidentinin apardığı düzgün, düşünülmüş, məqsədyönlü siyasət dayanırdı. Zaman dəyişdikcə bu sahədə yeni baxışlara çox böyük ehtiyac var. Vətən Müharibəsində əldə etdiyimiz tarixi zəfərdən sonra gənclərimizin beyinlərini yumaq, onları düzgün yoldan yayındırmaq üçün xarici, xüsusən ermənipərəst dairələr tərəfindən iş aparılır. Bu səbəbdən də, bütün məsuliyyəti dövlətin üzərinə qoymaq da olmaz. Bu yöndə ailələrin üzərinə ağır məsuliyyət düşür. Həmçinin QHT və media quruluşları da lazımi səviyyədə iş aparmalıdır. Psixoloq Ülviyyə Murtuzova bizimlə söhbətində bildirdi ki, ilk növbədə valideynlər uşaqlarına yetəri qədər zaman ayırmalıdırlar: "Çünki uşaqların ehtiyacı olduğu ən böyük hiss sevgi, qayğı və diqqətdir. Bəzən valideynlər elə başa düşür ki, onlar uşaqların bütün ehtiyaclarını ödəyirlər. Məsələn, gözəl geyimlər almaqla, tətilə göndərməklə bunu təmin etmiş olduqlarını düşünürlər. Amma uşaqlar bəzən bu hallardan razı qalmayaraq depressiv vəziyyətə düşə bilirlər. Çünki uşaqların bundan daha çox valideyn qayğısına ehtiyacı var. Təbii ki, hər bir valideyn bunları etməli və uşaqların xüsusilə, təhsilinə diqqət etməlidir, amma bunları öz sevgilərini göstərərək etməlidir. Onlara mütəmadi olaraq vaxt ayırmalıdırlar. İllərdir uşaqlarla işləyən bir şəxs kimi deyə bilərəm ki, bizim hələ uşaqlardan öyrənəcəyimiz çox şeylər var. Müasir dövrə uyğun olaraq uşaqlar daha dərin düşünür, çox tez inkişaf edirlər. Uşaqlar böyüklərdən fərqli olaraq öz haqlarını daha yaxşı tələb etməyi bacarırlar. Uşaqları mənəvi cəhətdən inkişaf etdirmək üçün bir çox yollar var. Valideynlər mütləqdir ki, həftə sonlarını öz uşaqları ilə keçirməlidirlər. Onların istəmədiklərini onlara məcbur etmək düzgün deyil. Onları öz istəklərinə uyğun deyil, uşaqların istəklərinə uyğun və düzgün yöndə istiqamətləndirmək lazımdır, bu daha çox təhsil sahəsində müşahidə olunur ki, bəzən uşaqlar valideyn istəyinə uyğun istiqamətdə təhsilə yönəldilir. Əslində valideynlər çalışmalıdır ki, onları sevdikləri sahəyə yönəltsinlər".

Psixoloqun sözlərinə görə, biz həmçinin yeni nəsildə əməyə yaradıcı münasibət tələbatı üzərində çalışmalıyıq: "İnsanlar nə qədər əmək sərf edirlərsə, harada iş görürlərsə, bu işi daha gözəl icra etmək tələbatı yaranmalıdır. Unutmaq olmaz ki, yeni nəslin inkişafında təkcə təhsil sistemi, valideyn yox, həm də gənclər özləri çalışmalıdırlar. Böyüyən yeni nəsil fiziki cəhətdən də sağlam olmalıdır. Bu istiqamətdə həm müəyyən strukturların üzərinə vəzifə düşür, həm də həmin nəslin özünün davranışından asılıdır. Bu sahədə ciddi düşünülməli, addımlar atılmalıdır. Elmə əsaslanan fəaliyyət proqramı hazırlanmalı, proqramda valideynlərə necə işləmək lazım olması qeyd olunmalıdır".

### Pedaqoji kollektiv uşaq və gənclərin tərbiyəsinə görə cavabdeh olmaqla böyük hörmət və ehtirama layiqdir

Təbiidir ki, QHT və KİV-lər bu yöndə təbliğatlarını gücləndirməlidirlər. Çünki maarifləndirmənin də rolu bu məsələdə böyükdür. Dövlətin həm QHT-lər , həm də KİV-lər üçün ayırdığı qrantlarda məhz bu sahələrə ciddi önəm verilir.

Sözsüz ki, ailə tərbiyəsi ilə yanaşı, uşaq və gənclərin yetişməsində təhsil ocaqlarının da rolu danılmazdır, çünki uşaqların cəmiyyətlə ilk tanışlığı onların məktəbə qədəm qoyması ilə başlayır. Orta məktəbdə gənclərimiz məhz düzgün tərbiyə almalı, sağlam yetişdirilməlidirlər. Bunun ardınca da, istər ali təhsil ocaqlarında, istərsə də peşə təhsili müəssisələrində gənclərimizə layiqli vətəndaş olmaları aşılanmalı, bunun üçün isə onların təlim-tərbiyəsinə xüsusi diqqət yetirilməlidir. Bu məsələdə isə məsuliyyət təhsil müəssisələrində çalışan müəllimlərin üzərinə düşür. İstər orta, istərsə də ali təhsil müəssisələrində və peşə təhsili müəssisələrində çalışan müəllimlər bunu nəzərə almalıdırlar ki, gənc nəslin həm düzgün tərbiyə almasında, həm də düzgün istiqamətləndirilməsində onların rolu böyükdür. Təbii ki, bu baxımdan da müəllim əməyinə hörmətlə yanaşılmalıdır və nəzərə alınmalıdır ki, pedoqoji kollektiv uşaq və gənclərin tərbiyəsinə görə cavabdeh olmaqla böyük hörmət və ehtirama layiqdirlər. Bir sözlə bu istiqamətlər üzrə ciddi nəticələri əldə etmək üçün, bütün sahələr üzrə kompleks addımlar atılmalıdır.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**